# XƏLİL YUSİFLİ – 85



**Xəlil Həmid oğlu Yusifli** 17 iyul 1935-ci il tarixində Qazax rayonunun Əli Bayramlı (indiki Aslanbəyli) kəndində anadan olmuşdur. Atası Həmid Ömər oğlu Yusifov 1943-cü ildə Böyük Vətən müharibəsində itkin düşmüş, anası Tükəzban Həsən qızının himayəsində böyümüşdür. O, 1945-1955-ci illərdə Əli Bayramlı (Aslanbəyli) kənd orta məktəbində, 1955-1960-cı illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1961-ci ildən Nizami adına Ədəbiyyat və Dil İnstitutunda laborant kimi başlamış, 1962-1965-ci illərdə həmin institutun Qədim və orta əsrlər ədəbiyyatı şöbəsinin aspirantı olmuş, 1967-ci ildə "Nizaminin lirikası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Pedaqoji fəaliyyətlə də məşğul olan alim 1969-cu ildə müsabiqə yolu ilə Kirovabad Dövlət Pedaqoji İnstitutunda (hazırda Gəncə Dövlət Unniversiteti) baş müəllim vəzifəsinə seçilmişdir. O zamandan həmin universitetdə Dünya ədəbiyyatı və Azərbaycan ədəbiyyatı tarixi fənlərini tədris edir. Alim 1987-ci ildə "Nizami Gəncəvi və Şərq İntibahı" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1989-cu ildə professor elmi adını almışdır. 2008-ci ildə AMEA-nın Gəncə Elmi Mərkəzinin Nizamişünaslıq şöbəsinin müdiri seçilən X.Yusifli 2012-ci ildən AMEA-nın Gəncə Bölməsi nəzdində Nizami Gəncəvi Mərkəzinin direktoru vəzifəsində çalışır.

Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının əsas tədqiqatçılarından biri olan Xəlil Yusiflinin elmi fəaliyyətinin böyük bir hissəsini nizamişünaslıq təşkil edir. Onun çoxsaylı elmi məqalələri, "Nizaminin lirikası" (1068), "Şərqdə intibah və Nizami Gəncəvi" (1982) adlı monoqrafiyaları bu məhsuldar əməyin mükəmməl nəticəsidir. Professor X.Yusifli Nizaminin əsərlərinin latın qrafikalı nəşrinin tərtibi sahəsində də böyük iş görmüş, nəşrə daxil olan kitabların bir neçəsinə geniş ön söz yazmışdır. O, Nizaminin "Xosrov və Şirin" əsərini fars dilindən ana dilimizə poemanın bəhrini qorumaqla bədii tərcümə etmiş, "Xəmsə"yə daxil olan əsərlərin yeni təfəkkür işığında öyrənilməsi istiqamətində yorulmadan fəaliyyət göstərmişdir.

X.Yusifli 2011-ci ildə Gəncədə çap olunan "Xosrov və Şirin" poemasına yazdığı "Elmi və bədii fikrin üfüqləri fövqündə" adlı ön sözdə Nizaminin öz əsərlərindən gətirilən nümunələrlə şairin Azərbaycan türkü olduğunu, əslinin hər hansı bir digər etnosa bağlamağın heç bir elmi əsasa söykənmədiyini bir daha qeyd etmiş, 2012-ci ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunan "Nizaminin etnik mənsubiyyəti: həqiqət və uydurmalar" adlı məqaləsində isə uydurma üsullarla Nizaminin türklüyü haqqında həqiqəti danmağın mümkünsüz olduğunu bir daha sübuta yetirmişdir.

Alimin "Nizami Gəncəvi: sələflər və xələflər" (2011) adlı monoqrafiyası Nizami poeziyasının özündən əvvəlki və sonrakı yaxın və Orta Şərq ədəbiyyatı ilə əlaqələrinə həsr olunub. Kitabda Nizaminin əsərlərində mövzuların qoyuluşu və onların bədii həlli prosesində sələflərindən fərqli olaraq, vətənpərvərlik nümayiş etdirməsi, türkə rəğbətini ifadə etməsi, türk əxlaqından, türk dastan təfəkküründən, türk mifik düşüncə tərzindən çıxış etməsi məsələləri qaldırılır.

X.Yusiflinin çoxşaxəli elmi araşdırmaları içərisində "Məhsəti Gəncəvi" (1984) adlı monoqrafiyasının da öz yeri və çəkisi var. O, Məhsətinin rübailərinin bir qismini dilimizə poetik tərcümə edərək yenidən tərtib etmiş, geniş ön sözlə 2004-cü ildə nəşrə hazırlamışdır.

Xəlil müəllimin klassik ədəbiyyat nümunələrinin tərcüməsi və tərtibi sahəsində gördüyü işlər sırasında Marağalı Övhədinin "Cəmşidin camı" (1970, 1986, 2004 – Q.Beqdeli ilə birgə), Xaqani Şirvaninin "Seçilmiş əsərlər" (2004), Arif Ərdəbilinin "Fərhadnamə" (2007), Mirzə Şəfi Vazeh və İvan Qriqoryevin "Kitabi-türki" dərsliyinin adlarını qeyd etmək vacibdir.

Onun elmi-pedaqoji fəaliyyətinin nəticəsi kimi meydana gələn AMEA-nın müxbir üzvü Əlyar Səfərli ilə həmmüəllif olduğu "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı" (1982, 1998, 2004) və IX sinfi üçün "Ədəbiyyat" dərslikləri (1993-2003), uzun illər oxuduğu mühazirələrinin yekunu olan "Orta əsrlər Azərbaycan şeirində janrlar və bədii ifadə vasitələri" (2017) adlı dərs vəsaiti neçə nəsl filoloqlarımızın yetişməsində öz müsbət təsirini göstərib və bu missiyanı hələ də uğurla davam etdirir. Onun həmmüəllif olduğu "Dünya ədəbiyyatı tarixi - Antik dövr" (1999) dərsliyi alimin geniş erudisiyasından xəbər verir.

Xəlil Yusiflinin elmi və pedaqoji fəaliyyəti dövlətimiz tərəfindən də yüksək qiymətləndirilmiş, o, Azərbaycan Respublikası Prezidentinin 12 aprel 2009-cu il tarixli, 241 №-li sərəncamı ilə Əməkdar elm xadimi fəxri adına, 4 may 2015-ci il tarixli, 1202 №-li sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülmüşdür.

Bu günlərdə ömrünün 85-ci ilinə qədəm qoyacaq professor Xəlil Yusifli yenə də əvvəlki əzmlə iş başındadır. Onu tez-tez Əlyazmalar İnstitutunun unikal xəzinəsini araşdırıb Azərbaycan ədəbiyyatının yeni-yeni səhifələrini tarixin qaranlıqlarından gün işığına çıxaran görürük. Biz də öz növbəmizdə klassik ədəbi irsimizin görkəmli tədqiqatçısı Xəlil müəllimi yubileyi münasibəti ilə təbrik edir, ona uzun ömür, möhkəm can sağlığı və yeni-yeni nailiyyətlər arzulayırıq.

**Əzizağa Nəcəfzadə**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*